## “Hava limanlarına transfer” xidmətinin qaydaları

### Terminlər və əsas anlayışlar

**Podratçı -** Təşkilatçı ilə müvafiq müqavilə əsasında hazırkı Qaydaların şərtlərinə uyğun olaraq transfer xidmətləri göstərmək hüququna malik olan hüquqi şəxs.

**Transfer** – Sərnişinin avtonəqliyyat vasitəsi ilə sifariş məntəqəsindən təyinat məntəqəsinə çatdırılması.

**Avtonəqliyyat vasitəsi /Avtomobil** – Podratçının istifadəsində olan və müvafiq müraciətlərə əsasən onun tərəfindən istifadə edilən minivan, biznes sinif, birinci sinif və s. sinifdən olan nəqliyyat vasitələri.

**Sərnişin** – Müraciət əsasında sərnişinlərin və yüklərin daşınması üçün transfer xidmətlərindən istifadə etmək imkanı verilən kart sahibi, fiziki şəxs.

**Baqaj** - Sərnişini səfər zamanı müşayiət edən daşınma məqsədilə qablaşdırılan, eləcə də ölçüsündən, çəkisindən və xüsusiyyətlərindən asılı olaraq daşınmasına icazə verilən yük.

**Hava limanı** – Bakı Heydər Əliyev adına Beynəlxalq Hava Limanı (GYD – Bakı şəhəri), Dubay Beynəlxalq Hava Limanı (DXB – Dubay şəhəri), Zayed Beynəlxalq Hava Limanı (AUH – Abu Dabi şəhəri), İstanbul Beynəlxalq Hava Limanı (IST – İstanbul şəhəri), Sabiha Gökçen Beynəlxalq Hava Limanı ( SAW - İstanbul şəhəri), Adnan Menderes Beynəlxalq Hava Limanı (AİB - İzmir şəhəri), Antalya Beynəlxalq Hava Limanı (AYT - Antalya şəhəri), Milas-Bodrum Beynəlxalq Hava Limanı (BJV - Bodrum), Gazipaşa-Alanya Beynəlxalq Hava Limanı (GZP - Gazipaşa)

**Sifarişçi -** 900 Metro Center Boulevard, Foster City, CA 94404 - 2775, ABŞ ünvanında yerləşən Visa International Service Association -dir.

**Kartlar** - Bank tərəfindən buraxılmış Visa Signature və Visa Infinite ödəniş kartları. **Messencer** -

ani mesajlaşma və video mübadilə proqramı (məsələn: Viber, Telegram).

**Texniki tərəfdaş** - “İNFOKUS” Məhdud Məsuliyyətli Cəmiyyəti (hüquqi şəxsin identifikasiya kodu: 36563986, ünvan: Ukrayna, 01023, Kiyev ş., Sportivnaya meydanı, 1-A).

**Qaydalar** – “Hava limanlarına transfer” xidmətinə dair hazırkı Qaydalar.

**Etibarlılıq müddəti** - 25 dekabr 2024-cü il saat 00:00:01-dən 31 dekabr 2025-ci il saat 23:59:59-a qədər olan müddət.

**Çatbot –** https://mssg.me/concierge xidmət linkindəki messencerdə yerləşdirilən Visa Concierge çatbotu.

### 1. Xidmətin göstərilmə qaydaları

**1.1.** Xidmətləri əldə etmək üçün Sərnişin etibarlılıq müddəti ərzində aşağıdakı öhdəlikləri yerinə yetirməyi öz üzərinə götürür:

**1.1.1.** Kartın həqiqi sahibi olmalı;
**1.1.2.** Çatbotun daxili qeydiyyat prosedurlarına uyğun olaraq Çatbotda qeydiyyatdan keçməli və ya qeydiyyatdan keçmiş olmalı;
**1.1.3.** Müvafiq Çatbot menyusunda "Hava limanına transferlər" düyməsini basmalı;
**1.1.4.** Hazırkı qaydaları oxumalı və onları qəbul etməli;
**1.1.5.** Kartı əlaqələndirməli və xidmətin əlçatanlığını yoxlamalı;
**1.1.6.** Xidmət əlçatan olduqda, hava limanını seçməli;
**1.1.7.** Çatbotda öz adını, soyadını, sərnişinlərin sayını, baqaj vahidlərinin sayını, uçuş reysinin nömrəsini, ünvanı (hava limanından/hava limanına), avtomobilin çatdırılma tarixi və vaxtını, adlı lövhəciyi (göstərilməlidir), aviabileti, əlavə xidmətləri göstərməlidir.

**1.2.** Hazırkı Qaydaların 1.1.1.-1.1.7-ci bəndlərində göstərilən öhdəliklər uğurla yerinə yetirildikdə, aşağıdakı limitlər nəzərə alınmaqla Sərnişin üçün transfer təşkil edilir (Kartı verən bankın mülahizəsinə əsasən, aşağıda göstərilən limitlər artırıla bilər. Belə olduğu halda limitlər haqqında məlumat kartı verən bankın internet saytında təqdim edilməlidir. Sərnişin kartı verən bankdan limitlər haqqında məlumatı dəqiqləşdirməlidir):

**1.2.1.** Visa Signature kart sahibi olan Sərnişin üçün – hava limanından asılı olmayaraq ildə 4 -dən çox olmayan transfer;
**1.2.2.** Visa Infinite kart sahibi olan Sərnişin üçün – hava limanından asılı olmayaraq ildə 6 -dan çox olmayan transfer.

**1.3.** Hazırkı Qaydalar Sərnişin və Texniki Tərəfdaş/Sifarişçi/Podratçı arasında rəsmi münasibətlər üçün əsas sənəd hesab olunur. Sərnişin tərəfindən hazırkı Qaydaların müddəalarının qəbul edilməsi həmin Qaydaların 1.1.1.-1.1.7-ci bəndlərində göstərilən hərəkətlərin ardıcıl yerinə yetirilməsi yolu ilə həyata keçirilir.

**1.4.** Qaydaların Sərnişin tərəfindən qəbul edilməsi könüllü şəkildə həyata keçirilir və hazırkı Qaydaların şərtləri əsasında yazılı müqavilənin bağlanması deməkdir. Qaydaların qismən qəbuluna icazə verilmir.

**1.5.** Transfer sifarişləri üzrə Sərnişin də daxil olmaqla maksimum sərnişin sayının 4 nəfər, baqaj sayının da 4 ədəd olması nəzərdə tutulur.

**1.6.** Podratçının təqsiri olmadan Sərnişin və ya üçüncü şəxslər tərəfindən transfer xidmətlərindən istifadə edilməməsi / natamam istifadə edilməsi hallarında, avtomobilin istifadə müddətindən, marşrutundan və ya boşdayanma müddətindən asılı olmayaraq transfer sifarişi yerinə yetirilmiş hesab ediləcəkdir.

**1.7.** Sərnişin sifarişdə göstərilən müddətdən əvvəl transfer xidmətlərinin göstərildiyi başlanğıc yerə gəlməlidir. Sərnişinin hava limanına transfer üçün razılaşdırılmış sifarişi gözləmə müddəti bütün sifarişlər üçün 30 (otuz) dəqiqə (Bakı şəhəri üzrə - 15 dəqiqə), hava limanından transfer sifarişləri üçün isə faktiki eniş müddətindən etibarən 60 (altmış) dəqiqə təşkil edir. Göstərilən müddət bitdikdə və



Sərnişin gəlmədikdə, transfer sifarişi yerinə yetirilmiş hesab edilir. Uçuş reysi gecikdiyi halda, xidmət Podratçı tərəfindən yerinə yetirilmiş hesab edilir.

**1.8.** Sərnişinlərin və baqajın daşınması ilə bağlı Podratçının tələbləri aşağıdakılardır: standart baqaj dedikdə, 22 (iyirmi iki) düym (55x25x35 sm) ölçülü baqaj nəzərdə tutulur. Ölçüsü 28 (iyirmi səkkiz)

düym (76x48x29 sm) olan baqaj iki (2) baqaj qismində hesab ediləcək. Baqajın həcmindən asılı olaraq hər bir avtonəqliyyat vasitəsi üçün baqaj limiti müəyyən edilir və Sərnişin müraciətini təqdim edərkən bu barədə müvafiq məlumatla təmin olunur. Qeyri-standart baqajların daşınmasına icazə verilmir.
**1.9.** Sərnişin üçüncü şəxslərin və Podratçının əmlakına lazımi qayğı və ehtiyatla yanaşmağı, əmlaka zərər vurmamağı, sözügedən əmlakdan istifadə ilə bağlı üçüncü şəxslərin və Podratçının müəyyən etdiyi qaydalara əməl etməyi öhdəsinə götürür.

**1.10.** Sərnişinin əlavə xidmətlərə (uşaq oturacağının təmin edilməsi) ehtiyacı olarsa, o, bunu Çatbotda qeyd etməlidir. Əlavə xidmətlər üçün əlavə ödənişlər tətbiq edilir.

**1.11.** Transfer xidməti və ya onun dəyişdirilməsi üçün müraciət transfer xidmətinin başlamasına ən azı 12 (on iki) saat qalmış təqdim edilməlidir. Sərnişin Podratçı tərəfindən göndərilən təsdiqi diqqətlə yoxlamalı və məlumatların düzgünlüyünə əmin olmalıdır. Sərnişin səhv aşkar edərsə, Podratçıya bu barədə sifarişin icra müddətinin başlamasına ən gec 6 (altı) saat qalmış məlumat verməlidir. Əks halda, Podratçı sifarişdəki səhvlərə görə məsuliyyət daşımayacaq. Transfer xidməti üzrə müraciət yalnız sərnişinlərdən biri Sərnişin olduqda qəbul və icra edilə bilər. Bu Qaydalardakı vaxtla bağlı bütün təlimatlar yerli vaxta (GMT+4) əsasən müəyyən edilir.

**1.12.** Transfer xidmətləri üçün müraciətin ləğvi aşağıdakı qaydada həyata keçirilir:

**1.12.1.** Belə müraciətin icrasının başlamasına 6 (altı) və ya daha çox saat qalmış, transfer xidmətləri üzrə müraciət Çatbot vasitəsilə Texniki Tərəfdaşla əlaqə saxlamaq yolu ilə ləğv edilə bilər;

**1.12.2.** Transfer xidmətinin icrasının başa çatmasına 6 (altı) saatdan az vaxt qalarsa, transfer xidməti yerinə yetirilmiş hesab ediləcək.

**1.13.** Sərnişin və onu müşayiət edən şəxslər avtomobildə siqaret çəkməməyi, təhlükəsizlik kəmərini taxmağı, avtomobillə ehtiyatlı davranmağı, avtomobili zibilləməməyi öhdələrinə götürür. Bu qaydalara əməl edilmədikdə, vandalizm və ya sürücünün narahatlığına səbəb olan digər hərəkətlərə yol verdikdə, Sərnişin Podratçıya ümumi razılaşdırılmış məbləğdə və dəymiş zərərin məbləğində kompensasiya ödəməyə borcludur, o şərtlə ki, Sərnişinin təqsiri məhkəmə qaydasında sübuta yetirilmiş olsun. Oxşar öhdəliklər Sərnişinlə səyahət edən şəxslərə də şamil edilir.

**1.14.** Avtomobildə texniki nasazlıq baş verdikdə, Podratçı avtomobili eyni və ya daha yüksək dərəcəli avtomobillə əvəz edir.

**1.15.** Podratçı bildirir ki, o, öz riski və hesabına xidmətlərin göstərilməsi üçün zəruri olan bütün təsdiqləri, icazələri və lisenziyaları (o cümlədən heç bir məhdudiyyət olmadan sərnişinlərin və/və ya yüklərin daşınması üçün zəruri olan xüsusi razılıq (lisenziya)) əldə edib və bu sənədlər hazırkı Qaydaların bütün qüvvədə olduğu müddət ərzində etibarlı olacaqdır.

**1.16.** Podratçının təqsiri olmadan yaranmış hallara görə (transfer haqqında yanlış/natamam məlumatların təqdim edilməsi; Sərnişinin və ya onunla birlikdə səyahət edən şəxslərin spirtli içkilərin və



ya narkotiklərin təsiri altında olması; Sərnişinin həyatına, sağlamlığına və/və ya avtonəqliyyat vasitəsinin vəziyyətinə zərər vura bilən Sərnişinin və ya onu müşayiət edən şəxslərin hərəkətləri) transfer xidmətindən imtina edə bilər.

**1.17.** Transfer xidmətini birbaşa yerinə yetirərkən Podratçı marşrut xəttini dəyişdirməkdən imtina etmək

hüququna malikdir, lakin Podratçı xidmətlərin lazımi şəkildə göstərilməsi və bu Qaydaların şərtlərinə əməl edilməsi üçün bütün imkanlardan istifadə edəcəkdir. Transfer xidməti yalnız belə xidmətə müraciət edərkən Sərnişin tərəfindən qeyd edilən ünvanlara göstərilir.

**1.18.** Podratçı birtərəfli qaydada, Sərnişinin maraqlarına xələl gətirmədən, göstərilən/göstəriləcək xidmətlərə dəyişikliklər edə bilər (marşrutu dəyişdirmək, avtonəqliyyat vasitəsini eyni və ya daha yüksək dərəcəli avtonəqliyyat vasitəsi ilə əvəz etmək, sürücünü dəyişdirmək).

**1.19.** Podratçı Sərnişini rus və ya ingilis dilli sürücü ilə təmin etməyə çalışacaq, lakin buna zəmanət vermir. Sürücünün müəyyən bir dili bilməməsi Sərnişinin Podratçıya qarşı iddia qaldırması, irad bildirməsi üçün əsas sayıla bilməz.

**1.20.** Sürücü Sərnişindən onun şəxsiyyətini təsdiq edən sənədləri tələb etmək hüququna malikdir.

## 2. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

**2.1.** Sərnişin təqdim olunan məlumatların düzgünlüyünə görə məsuliyyət və kartdan istifadə hüququna görə qanunvericiliklə nəzərdə tutulan hüquqi məsuliyyət daşıyır.

**2.2.** Vergilərin, rüsumların və icbari ödənişlərin ödənilməsi qanunvericiliyin mövcud qüvvədə olan müddəaları ilə müvafiq məsuliyyəti daşıyan şəxs tərəfindən həyata keçirilir.

**2.3.** Sifarişçi / Texniki Tərəfdaş Sərnişinin və ya üçüncü şəxslərin özlərindən asılı olmayan səbəblərə görə, o cümlədən uçuş reysinin ləğvi, vaxtının dəyişdirilməsi və ya gecikməsi səbəbindən (lakin Sərnişin və ya onu müşayiət edən şəxslər tərəfindən mövcud qanunvericilik müddəaları və s.-nin pozulması ilə məhdudlaşmayaraq) transfer xidmətlərindən istifadə edə bilməməsinə görə məsuliyyət daşımır.

**2.4.** Sərnişinin və ya üçüncü şəxsin təqsiri üzündən transfer xidmətinin göstərilməsi proseduru pozulduqda (həqiqətə uyğun olmayan məlumat vermə, göstərilən yerə çatmama və ya vaxtında çatmama, ləğvetmə müddətinin keçib bitməsi) transfer tamamlanmış hesab edilir.

**2.5.** Bu Qaydaların qüvvədə olduğu müddət ərzində Podratçının təqsiri üzündən baş verən yol-nəqliyyat hadisəsi, avtonəqliyyat vasitəsinə, Sərnişinə, onu müşayiət edən şəxslərə və baqaja dəymiş ziyana, habelə üçüncü şəxslərin iddialarına görə Podratçı tam məsuliyyət daşıyır.

**2.6.** Yol-nəqliyyat hadisəsi baş verdikdə Sərnişinin və onu müşayiət edən şəxslərin həyat və sağlamlığına vurulan zərərə görə məsuliyyət Azərbaycan Respublikasının ərazisində nəqliyyat vasitəsi sahibinin məsuliyyətinin sığortası haqqında qanunvericiliklə tənzimlənir.

## 3. ŞƏXSİ MƏLUMATLARIN EMALI



**3.1.** Şəxsi məlumatlarının emalı üçün ayrıca əsas olan bu Qaydaların şərtlərinə əsasən bağlanmış müqaviləni yerinə yetirmək üçün Sərnişin Texniki Tərəfdaşa aşağıdakı şəxsi məlumatları təqdim edir: ingilis dilində soyadı, adı, atasının adı, telefon nömrəsi, aviabilet haqqında təfərrüatlar. Bu məlumatların emalı qaydaları Çatbotda məlumatların emalı prosedurunun bir hissəsidir.

**3.2.** 3.1-ci bənddə göstərilən şəxsi məlumatlar Sərnişinin transfer xidmətlərini alması hüququndan

istifadə etməsi üçün etibarlılıq müddəti ərzində emal edilir. Bu Qaydaların şərtlərinə əməl edilməsi üçün bu cür şəxsi məlumatlar (Texniki Tərəfdaşın və Podratçının xarici serverlərinə) toplanacaq, işlənəcək və ötürüləcək. Texniki Tərəfdaş şəxsi məlumatların sahibi və idarə edənidir. Podratçı şəxsi məlumatların emalı ilə bağlı öz siyasətinə malikdir, habelə heç bir halda bu məlumatlar hazırkı Qaydalara zidd olaraq istifadə edilə bilməz. Podratçının şəxsi məlumatların emalı siyasəti ilə Sərnişinin sorğusu əsasında transfer sifarişi zamanı tanış olmaq olar. Şəxsi məlumatlar Podratçıya ötürüldükdən sonra, bu cür məlumatlar müəyyən edilmiş siyasət əsasında emal edilir. Sərnişin belə qaydalarla razılaşmadıqda, o, Qaydaların 1.1.1.-1.1.7-ci və ya 4.6-cı bəndində göstərilən hərəkətləri etməməlidir.

**3.3.** Bu Qaydaların 1.1-ci və ya 4.6-cı bəndində göstərilən hərəkətləri yerinə yetirməklə Sərnişin qeyd edilən şəxsi məlumatların emalı proseduru ilə razılaşır, həmçinin qanunla ona verilmiş bütün hüquqlarla tanış olduğunu təsdiq edir.

## 4. DİGƏR MÜDDƏALAR

**4.1.** Texniki Tərəfdaş üçüncü şəxsləri bu Qaydalar üzrə öhdəliklərin yerinə yetirilməsinə cəlb etmək hüququna malikdir.

**4.2.** Bu Qaydaların birmənalı şəkildə təfsir edilməməsi ilə bağlı vəziyyət, hər hansı mübahisəli məsələlər və/yaxud bu Qaydalarla həll olunmayan məsələlər yaranarsa, Təşkilatçı / Sifarişçi belə məsələləri həll etmək hüququnu özündə saxlayır. Texniki Tərəfdaşın / Sifarişçinin bu qərarı qətidir və ondan şikayət verilə bilməz.

**4.3.** Etibarlılıq müddəti Sifarişçi və Texniki Tərəfdaşın qarşılıqlı razılığı ilə dəyişdirilə və ya vaxtından əvvəl ləğv edilə bilər. Etibarlılıq müddətinin dəyişdirilməsi və ya onun vaxtından əvvəl xitamı Çatbotda qeyd olunduqda mümkündür.

**4.4.** Bu Qaydalar və onlara edilən düzəlişlər onlarla tanış olmaqdan ötrü Çatbotda yerləşdirilir.

**4.5.** Texniki Tərəfdaş etibarlılıq müddəti ərzində mövcud Qaydalara dəyişiklik etmək hüququnu özündə saxlayır.

**4.6.** Bank öz mülahizəsinə əsasən Kart sahibinə hədiyyə təqdim edə bilər və hədiyyələrin sayını müstəqil şəkildə müəyyənləşdirə bilər. Bu halda, həmin Kart sahibinə bu Qaydaların bütün şərtləri şamil olunur, hədiyyələrin sayına qoyulan limitlər, həmçinin Qaydaların 1.1-1.3 bəndləri istisna olmaqla. Bununla yanaşı, Hədiyyədən istifadə edilməsi və ya Hədiyyənin həyata keçirilməsi üçün Texniki partnyora müraciət edilməsi bu Qaydaların şərtlərinin qəbul edilməsi hesab olunur.

**4.7.** Bu yenilənmiş Qaydalar 01.09.2025-ci il tarixindən etibarən qüvvəyə minir.